Astrid Lindqren

# Uzuncorab Pippi «Toyuq» villasında

Uzuncorab

# Pippi

## "Toyuq" villasında

Astrid Lindqren



First published in 1945 by Rabèn & Sjögren, Sweden.
For more information about Astrid Lindgren, see www.astridlindqren.com.
All foreign rights are handled by Saltkråkan AB, Lidingö, Sweden.
For more information, please contact info@saltkrakan.se

© Text: Astrid Lindgren 1945/Saltkråkan AB
© Illustrations: Ingrid Vang Nyman 1945/Saltkråkan AB

**Astrid Lindgren Pippi flyttar in i Villa Villekulla**
**Astrid Lindqren Uzuncorab Pippi «Toyuq» villasında**
Bakı, "Əli və Nino" Nəşriyyatı, 2022, 144 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq

| | |
|---|---|
| Tərcümə: | Aydın İbrahimov |
| Korrektor: | Aysel Məmmədova |
| Rəssam: | İngrid Vang Nyman |
| Mətn dizaynı: | Rahilə Şamil |
| Qapaq dizaynı: | Rafael Qasım |

"Əli və Nino" Nəşriyyatı
Bakı, AZ 1005, Z.Tağıyev küç., 19
Tel.: (+994 12) 493 04 12
(+994 12) 493 93 68
e-mail: info@alinino.az
www.alinino.az

ISBN 978-9952-38-363-8

© Astrid Lindgren, 1945
© "Əli və Nino" Nəşriyyatı, 2022

# Pippi «Toyuq» villasına köçür

Siz kiçik bir İsveç şəhərinin kənarında çoxdan bəri baxımsız qalmış bir bağ görəcəksiniz. Bağda zaman keçdikcə köhnəlib qaralmış uçuq-sökük bir ev var. Uzuncorab Pippi də elə həmin bu evdə yaşayır. Onun doqquzca yaşı var, bununla belə, təsəvvür edin ki, bu evdə təktənha qalır. Onun nə atası var, nə anası. Düzünü desək, bunun hətta bəzi üstün cəhətləri də var – əyləncənin ən qızğın çağında kimsə onu yatmağa tələsdirmir, konfet istəyəndə heç kim onu balıq yağı içməyə məcbur etmir.

Əvvəllər Pippinin atası var idi, qız da atasını çox sevərdi. Əlbəttə, bir zamanlar onun anası da var idi, ancaq Pippi onu heç xatırlaya bilmir. Anası çoxdan ölüb. O zamanlar Pippi lap körpə idi, uşaq arabasında uzanıb elə dəhşətlə qışqırardı ki, heç kəs ona yaxın durmağa ürək eləməzdi. Pippi

əmindir ki, indi anası göydə yaşayır və oradan, balaca deşikdən öz qızına baxır. Ona görə Pippi tez-tez anasına əl edir və hər dəfə də deyir:

– Ana, qorxma, mənə heç nə olmaz!

Atası isə Pippinin çox yaxşı yadındadır. O, uzaq səfərlər gəmisinin kapitanı idi. Onun gəmisi dənizləri və okeanları yarıb keçərdi, Pippi də heç vaxt atasından ayrılmazdı. Lakin bir dəfə güclü fırtına vaxtı nəhəng bir dalğa atasını çəkib dənizə aparmış və o yox olmuşdu. Ancaq Pippi inanırdı ki, onun atası günlərin bir günü qayıdıb gələcək, çünki atasının dənizdə boğulmağını o heç cür təsəvvürünə gətirə bilmirdi. Qız belə qərara gəlmişdi ki, atası çoxlu zəncilər yaşayan adaya düşüb, oranın kralı olub və hər gün başında qızıl tac gəzdirir.

– Mənim atam zəncilərin kralıdır! Bu cür atası ilə öyünən qız az-az tapılar, – Pippi tez-tez ləzzətlə deyərdi: – Atam qayıq düzəldəndən sonra dalımca gələcək və mən zənci kralının qızı olacağam. Ay can, ay can! Gör nə qiyamət olacaq!

Baxımsız bağın ortasındakı bu köhnə evi atası neçə il əvvəl almışdı. O qocalanda, gəmi sürməyə qadir olmayanda Pippi ilə bura köçmək fikrində idi. Ancaq atası dənizdə yox olandan sonra Pippi birbaş öz «Toyuq» villasına gəldi ki, atasının yolu-



nu burada gözləsin. Bu köhnə ev «Toyuq» villası adlanırdı. Otaqlarda mebel, mətbəxdə qab-qacaq var idi. Elə bil hər şeyi xüsusi olaraq hazırlamışdılar ki, Pippi bura köçə bilsin. Sakit yay axşamlarının birində Pippi atasının gəmisindəki matroslarla vidalaşdı. Onlar hamısı Pippini çox istəyirdilər,

Pippi də onların xətrini o qədər istəyirdi ki, ayrılanda qüssələndilər.

– Sağ olun, uşaqlar! – deyib Pippi hər birinin növbə ilə alnından öpdü. – Qorxmayın, mənə heç şey olmaz!

O özü ilə ancaq ikicə şey götürmüşdü: bir zaman atasının ona bağışlamış olduğu cənab Nilson adlı balaca meymunu və ağzınacan qızıl pulla dolu böyük çamadanı. Bütün matroslar göyərtədə düzülüb qız gözdən itənəcən arxasınca kədərlə baxdılar. Pippi qətiyyətlə irəliləyir, bir dəfə də dönüb geri baxmırdı. Cənab Nilson onun çiynində əyləşmişdi, çamadan da əlində idi.

Pippi döngəni burulanda matros Fridolf:

– Tək getdi. Qəribə qızdır... Eh, onu heç saxlamaq olar, – deyib göz yaşını sildi.

O haqlı idi, Pippi, doğrudan da, qəribə qızdır. Ən çox heyrət oyadan onun qeyri-adi fiziki qüvvəsidir. Yer üzündə onunla bacara bilən bir polis nəfəri də tapılmaz. O istəsəydi, zarafata salıb atı qaldıra bilərdi və bilirsinizmi, bunu o tez-tez edir də. Axı Pippinin atı var.

Bu atı o, villasına köçdüyü gün alıb. At – Pippinin çoxdankı arzusu idi. Atı eyvanda saxlayır. Nahardan sonra Pippi həmin eyvanda bir fincan qəhvə içmək istəsə, o saat atı bağa aparır.

«Toyuq» villasının qonşuluğunda başqa bir ev də var. O da bağın içindədir. Bu evdə ata, ana və iki də balaca uşaq – bir oğlan, bir qız olur. Oğlanın adı Tommi, qızın adı Annikadır. Bunlar çox gözəl, yaxşı tərbiyə almış, üzüyola uşaqlardır. Tommi heç vaxt, heç kimdən, heç bir şey istəmir və höcətləşmədən anasının bütün tapşırıqlarını yerinə yetirir. Annika da istədiyinə nail olmadıqda şıltaqlıq etmir, kraxmallanmış, tərtəmiz çit paltarlar ona yaxşı yaraşır. Tommi və Annika mehriban-mehriban bağlarında oynayırdılar, ancaq yenə də onlara nə isə çatmırdı və onlar özlərinə əyləncə yoldaşı tapmağı arzulayırdılar. Hələ Pippi dənizlərdə və okeanlarda atası ilə üzdüyü zamanlar hərdənbir Tommi və Annika «Toyuq» villasını onların bağından ayıran hasara dırmaşar və hər dəfə də deyərdilər:

– Heyif ki, bu evdə heç kim olmur. Əgər bu evə uşaqlı bir ailə köçsə idi, çox qiyamət olardı.

Pippi o aydın yay axşamı ilk dəfə villasının astanasından içəri girəndə Tommi və Annika evdə yox idi. Anası onları bir həftəlik nənəsigilə qonaq göndərmişdi. Buna görə də onlar qonşu evə kiminsə köçdüyündən xəbərsiz idilər. Onlar nənəsigildən axşam qayıtdılar, səhər isə qapılarının ağzında durub küçəyə baxır, hələ heç nədən xəbərləri olmadığı halda, nə ilə məşğul olmağı

müzakirə edirdilər. Onlara elə gəldi ki, maraqlı bir oyun fikirləşə bilməyəcəklər və bütün günləri cansıxıcı keçəcək. Elə bu vaxt qonşu evin qapısı açıldı, bir qız qaça-qaça küçəyə çıxdı. Tommi və Annika heç vaxt belə qəribə qız görməmişdilər.

Uzuncorab Pippi səhər gəzintisinə çıxmışdı. Onun qəribə görkəmi vardı: qırmızıya çalan sarışın saçını iki hörmüşdü və hörüklərinin də hərəsi bir tərəfə baxırdı; burnu bapbalaca, fındığa oxşayırdı, üstü çil-çil idi, yekə ağzında ağ dişləri parlayırdı. Əynində mavi paltar var idi, amma, görünür, parça çatmadığından paltarının bəzi yerlərinə qırmızı parçadan calaq vermişdi. Olduqca nazik və arıq qılçalarının birinə qəhvəyi rəngli, o birinə də qara rəngli uzun corab geymişdi. Çox iri, qara çəkmələri isə elə bil bu dəqiqə ayağından çıxacaqdı. Atası onun üçün bu ayaqqabıları Cənubi Afrikadan almışdı ki, Pippi böyüyəndə geysin, ancaq qız ayağına bunlardan başqa heç nə geymək istəmirdi.

Bu yad qızın çiynində əyləşmiş meymunu görəndə Tommi və Annika lap yerlərində donub qaldılar. Balaca meymunun ayağında göy şalvar, əynində sarı gödəkçə, başında da ağ həsir şlyapa var idi.